**Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin**

**Elmi Şurasının iclasının**

**P R O T O K O L U**

**№03/2017**

*Şamaxı şəhəri* *21 avqust 2017-ci il*

İştirak etdilər:

**Elmi Şuranını 7 üzvü:**

1. Həsənov Əli – Tədris Mərkəzinin rəisi, Elmi Şuranın sədri;
2. Mehdiyev Ceyhun – Tədris Mərkəzinin rəisinin birinci müavini;
3. Tarverdiyev Tofiq – Tədris Mərkəzinin Maliyyə-təsərrüfat işləri üzrə rəis müavini;
4. Məhərrəmov Ramiz – Tədris Mərkəzinin Tədris və metodika şöbəsinin rəisi;
5. Əkbərov Malik –Tədris Mərkəzinin Vergi metodologiyası kafedrasının müdiri;
6. Hüseynov Elbəyi – Tədris Mərkəzinin Vergi qanunvericiliyi və təsərrüfat hüququ kafedrasının müdiri;
7. Qarayev İmran – Tədris Mərkəzinin İqtisadiyyat və menecment kafedrasının müdiri, Elmi Şuranın katibi.

**Gündəlikdəki məsələ:**

1. **“Vergi inzibatçılığı” dərsliyi və həmin mövzu üzrə fənn proqramının müzakirəsi.**

Tədris Mərkəzinin rəisi, Elmi Şuranın sədri Əli Həsənov iclası açıq elan edərək, Elmi Şuranın 7 üzvünün iclasda iştirak etdiyini və kvorumun təmin edildiyini bildirdi. O, gündəliyə əlavə və dəyişikliklərə dair təkliflərin verilməsi ilə bağlı Elmi Şura üzvlərinə müraciət etdi. İclasın gündəliyinə dair əlavə təkliflər olmadı və gündəlik yekdilliklə qəbul olundu.

Elmi Şuranın müzakirəsinə çıxarılmış məsələ ilə bağlı Tədris Mərkəzinin rəisinin birinci müavini Ceyhun Mehdiyev çıxış edərək qeyd etdi ki, Azərbaycanda vergi sisteminin inkişafının müasir mərhələsində vergi inzibatçılığının təkmilləşdirilməsi və onun tədrisi xüsusi əhəmiyyət kəsb edir.

Praktiki və elmi araşdırmalar sübut edir ki, vergi inzibatçılığının təkmilləşdirilməsi və onun real tələblərə cavab verməsi birbaşa olaraq vergidaxilolmalarına təsir göstərir. Ona

görə də hesab edirəm ki, hal-hazırda müzakirəsi aparılan vergi inzibatçılığı üzrə dərslik kifayət qədər geniş əhatəli olmaqla, müasir tələblərə tam şəkildə cavab verir.

Daha sonra bu məsələ ilə bağlı kafedra müdirləri İmran Qarayev, Elbəyi Hüseynov çıxış etdilər. Onlar da öz çıxışlarında qeyd etdilər ki, vergi inzibatçılığı üzrə dərsliyin və metodiki proqramın hazırlanması vergi orqanlarında çalışan əməkdaşların peşəkarlıq və bacarığının gücləndirilməsində vacib əhəmiyyət kəsb edir. Onlar öz çıxışlarında qeyd etdilər ki, bu tədris materialları hal-hazırda istər nəzəri, istərsə də praktiki baxımdan əhəmiyyətli olmaqla, vergi siyasətinin səmərəli şəkildə həyata keçirilməsinə öz töhfəsini verəcəkdir.

Tədris Mərkəzinin rəisi, Elmi Şuranın sədri Əli Həsənov bu məsələ ilə bağlı öz fikrini bilidirərək qeyd etdi ki, həqiqətən müzakirəsi aparılan tədris materialları kifayət qədər yüksək səviyyədə yazılmış və praktiki tələblərə tam şəkildə cavab verir. Sonra isə Elmi Şuranın sədri Əli Həsənov bu materialların çapa verilməsini Elmi Şura üzvləri tərəfindən səsə qoydu. Şura üzvləri yekdilliklə tədris materiallarının çapa verilməsinə səs verdilər.

Sonda Elmi Şuranın sədri Əli Həsənov Şura üzvlərinə iştiraklarına görə təşəkkürünü bildirərək iclasın bitdiyini elan etdi.

**Qərara alındı:**

1. **"Vergi inzibatçılığı" üzrə dərslik və "Vergi inzibatçılığı" üzrə proqram çapa təqdim edilsin.**

**Sədr** **Əli Həsənov**

**Elmi Şuranın katibi** **İmran Qarayev**